## “Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 2 noyabr tarixli 457-IVQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 28 noyabr tarixli 753 nömrəli Fərmanının 1.4-cü bəndinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 3 dekabr 2014-cü il
381

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2014-cü il 3 dekabr tarixli
381 nömrəli qərarı ilə
təsdiq edilmişdir

## Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma

## QAYDALARI

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2012-ci il 2 noyabr tarixli 457-IVQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 avqust tarixli 389 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 28 noyabr tarixli 753 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə hazırlanmışdır və yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma qaydalarını müəyyən edir.

1.2. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların qısa mesaj (SMS) vasitəsilə göndərilməsi *Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq olaraq* ~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ *Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi (bundan sonra - müvafiq qurumlar), Azərbaycan Respublikasının digər ərazilərində isə* Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* tərəfindən sellülar (mobil) telekommunikasiya operatorları vasitəsilə həyata keçirilir.[1]

1.3. Göndərilən qısa mesajların (SMS) həcmi GSM standartlarının tələblərinə uyğun müəyyən olunur.

### 2. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların qısa mesaj (SMS) vasitəsilə göndərilməsi

2.1. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların qısa mesaj (SMS) vasitəsilə istifadəçilərə göndərilməsi ~~*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında*~~ *Bakı Nəqliyyat Agentliyinin* Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən təmin edilir.[2]

2.2. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların tərkibini *Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin* balansında olan respublika və yerli əhəmiyyətli, habelə Bakı şəhərində yerləşən avtomobil yollarında və küçələrdə baş verən aşağıdakı hallar təşkil edir:[3]

2.2.1. yenidən qurulma və təmir;

2.2.2. dövlət tədbirlərinin keçirilməsi;

2.2.3. qəzaların olması.

2.3. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların qısa mesaj (SMS) vasitəsilə göndərilməsi üzrə xidmətlər elektron formada göstərilir. Həmin məlumatlar müvafiq xidmətə abunə olmaq və ya SMS sorğu göndərməklə əldə edilir.

2.4. Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı məlumatların qısa mesaj (SMS) vasitəsilə göndərilməsi üzrə xidmətlər ödənişlidir. Aylıq abunə haqqı və bir SMS-in qiyməti *Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə* Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* ilə sellülar (mobil) telekommunikasiya operatorları arasında

bağlanmış müqavilə ilə müəyyən edilir. [4]

2.5. Xidmətin göstərilməsindən daxil olan vəsaitin xidmətin təşkilində iştirak edənlər arasında bölgüsü tərəflər arasında qarşılıqlı razılaşma ilə tənzimlənir.

2.6. Xidmətdən əldə edilən vəsait *~~Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında~~ Bakı Nəqliyyat Agentliyinin* Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzinin hesablaşma hesabında yığılır.

## 3. Məlumatların göndərilməsi üzrə xidmətlərdən şikayət edilməsi

3.1. Məlumatların göndərilməməsinə və ya göndərilməsindən imtina edilməsinə görə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq inzibati qaydada və məhkəməyə şikayət verilə bilər.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 7 aprel 2016-cı il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 805)**
2. 17 may 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 19 may 2018-ci il, 112, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 1134)**
3. 10 iyul 2018-ci il tarixli **289** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 iyul 2018-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1625)**
4. 21 yanvar 2019-cu il tarixli **20** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 164**)


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 7 aprel 2016-cı il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 805)** ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 1.2-ci bəndə "**göndərilməsi**" sözündən sonra "**Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyi, Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı yanında Sumqayıt Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyəti yanında Gəncə Avtomobil Nəqliyyatı ilə Sərnişindaşıma İdarəsi (bundan sonra - müvafiq qurumlar), Azərbaycan Respublikasının digər ərazilərində isə**" sözləri əlavə edilmişdir.

10 iyul 2018-ci il tarixli **289** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 12 iyul 2018-ci il, 152, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 7, II kitab, maddə 1625)** ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 1.2-ci, 2.1-ci və 2.6-cı bəndlərindən "**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında**" sözləri çıxarılmışdır.

21 yanvar 2019-cu il tarixli **20** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 164**) ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 1.2-ci və 2.4-cü bəndlərində "**Nəqliyyat Nazirliyi**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi"** sözləri ilə əvəz edilmişdir.

[2] 7 aprel 2016-cı il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 805)** ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 2.1-ci və 2.6-cı bəndlərdə "**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin**" sözləri "**Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[3] 17 may 2018-ci il tarixli **227** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Xalq" qəzeti 19 may 2018-ci il, 112 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 4, maddə 1134)** ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 2.2-ci bəndində "**Azərbaycan Respublikası Nəqliyyat Nazirliyinin**" sözləri "**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin**" sözləri ilə əvəz edilmişdir.

[4] 7 aprel 2016-cı il tarixli **150** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı **("Azərbaycan" qəzeti, 3 may 2016-cı il, 94 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 4, maddə 805)** ilə "Yolların müvəqqəti bağlanması və bu sahədə digər tədbirlərlə bağlı SMS məlumatlandırma Qaydaları"nın 2.4-cü bəndin ikinci cümləsinə "**qiyməti**" sözündən sonra "**Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə**" sözləri əlavə edilmişdir.